# Kamalə Abiyeva: "Şuşa ili"nə "Torpaq"la gəldim

Şair, publisist Kamalə Abiyevanın bu yaxınlarda "41" və "Torpaq" kitabları işıq üzü görüb. "41" adlı kitab İkinci Vətən savaşının Astara şəhidlərinin xatirəsinə həsr olunub. Kitaba ön söz deyil, son söz yazılıb. Son sözün müəllifi tanınmış imza Aysel Aydın Əlizadədir. "41" 2021-ci ilin noyabr ayında "Nprint studiya" nəşriyyatında çap olunub.

Bu ilin mart ayında isə"APOSTROF - A" nəşriyyatında "Torpaq" işıq üzü görüb. Kitabda Birinci və İkinci Vətən savaşının 11 şəhidinə, qazilərimizə həsr olunan esselər, vətən mövzulu şeir və hekayələr toplanıb. "Şuşa ili"nə "Torpaq"la gəldim - deyir Kamalə xanım.

Kitabın ön söz müəllifi isə filologiya üzrə fəlsəfə doktoru Təbəssüm Muxtarovadır.

Qeyd edək ki, hər iki kitabın redaktoru Aysel Aydın Əlizadədir.




Yaxın günlərdə Azərkitabda hər iki kitabın təqdimatı olub. "Müharibə bitən gündən şəhidlərimiz haqda yazmağa başladım. Bir il ərzində yazıldı bu yazılar və iki kitabda toplandı. Bütün şəhid ailələri bu kitabları gözləyirdi. "41" qələbəmizin ildönümündə nəşr olundu. "Şuşa ili"nə "Torpaq"la gəldim. Şəhid ailələri, qazi və döyüşçülərimiz tədbirin fəxri iştirakçısıdır" - deyir Kamalə xanım.

Təqdimatda Kamalə xanımın yaradıcılığını sevənlər, millət vəkilləri Rəşad Mahmudov, Jalə xanım Əliyeva, xalqımızın sevilən söz və sənət sahibləri Paşa Qəlbinur, Səlim Babullaoğlu, Nəzakət Məmmədova, Elçin İmanov, Gülnar Verdiyeva, Flora Hüseynova, Maşallah Məftun, Təbəssüm Muxtarova, Zöhrə Əliyeva, Nazilə Gültac, Əntiqə Qonaq, Əli Əmirov, Pərvanə Bayramqızı, Aysel Aydın Əlizadə, Rafael Tağızadə, Fidan Nizaməddin qızı, Sevil Ülvü, Nəzakət Kərimova, cavan nəslin istedadlı nümayəndələri Elçin Məmmədov, Vüsal, Aysel Xanlarqızı, Xəyalə Quliyeva, Gülnar Hüseynova, Müşfiqə Baladdinqızı, Arzu Murad və başqaları iştirak edib.

"Şuşa ili"nə "Torpaq"la gələn şairənin təqdimatında söz və bəstəsi Gülşən Rafiqqızına aid "Şuşam" mahnısını istedadlı müğənnimiz Sənan ifa edib. Tədbirdə Kamalə xanımın sözlərinə Gülşən Rafiqqızının bəstələdiyi "Cavab yaz" mahnısı özünəməxsus səsi ilə seçilən Naid Şadxanın ifasında ilk dəfə səslənib.

**Ədəbiyyat qəzet.- 2022- ci il.- 2 aprel.- S. 32.**